# HACIQABUL

№ 12 (671)

3 avqust 2017-ci il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti


# Hacıqabul rayonunun sosial-iqtisadi inkişaf dinamikası birinci yarımildə də davam etmişdir

## *Avqustun 2-də 2017-ci ilin birinci yarısında Hacıqabul rayonunun sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş şura iclası keçirildi*



***Şura iclasında RİHB-nın şəhər, qəsəbə, kənd İƏD üzrə nümayəndələri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, sahibkarlar, bələdiyyə sədrləri və idarə, müəssisə, təşkilat rəhbərləri iştirak edirdi.***

Yığıncağı RİH Başçısı Əhməd Muxtarov açaraq qeyd etdi ki, iyul ayının 12-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkəmizin sürətli inkişafı, ilin birinci yarısında nəzərdə tutulan bütün vəzifələrin uğurlu icrası Prezident İlham Əliyev tərəfindən bir daha diqqətə çatdırılmış, əsas uğurlarımızın iqtisadi islahatlar nəticəsində təmin edilməsi və cari ilin birinci yarısında ölkəmizin uğurla inkişaf etdiyi, qarşıda duran bütün vəzifələrin icra olunduğu, ölkəmizin daha da gücləndiyi və beynəlxalq əlaqələrin daha da dərinləşdiyi bildirilmişdir.

Qeyri-neft sektorunun cari ilin 6 ayında 1,7 faiz artdığını, bunun indiki şəraitdə çox yaxşı göstərici olduğunu bildirən dövlət başçısı qeyri-neft sənayesinin daha çox - 4,4 faiz artımını da qeyd edib.

Valyuta ehtiyatlarının ilin əvvəlindən 3 milyard dollar artaraq 40,6 milyard dollara çatdığını, 24 min iş yerinin bağlanmasına baxmayaraq 122 min yeni iş yerinin, o cümlədən 101 min daimi iş yerinin yarandığını, bu ilin 6 ayında ixracın 36 faiz, o cümlədən qeyri-neft ixracının 27 faiz artdığını, bununla bərabər idxalın 15 faiz azalaraq müsbət saldonun 1,9 milyard dollar təşkil etdiyini, kənd təsərrüfatının 2,2 faiz artdığını qeyd edən dövlət başçısı bunun aparılmış uğurlu iqtisadi islahatlar və düşünülmüş siyasət nəticəsində mümkün olduğunu bildirib.

Sonda keçən ilin iqtisadi, maliyyə sabitləşməsi ili olduğunu bildirən dövlət başçısı 2017-ci ilin də iqtisadi inkişaf ili olacağına əminliyini ifadə edib.

RİH Başçısı ilin birinci yarısında bütün sahələrdə əldə olunan uğur və nailiyyətlərin məhz ölkə prezidentinin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin məntiqi nəticəsi olduğunu diqqətə çatdırdı. Qeyd etdi ki, möhtərəm Prezidentimizin 27 fevral 2014-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı” Dövlət Proqramında qarşıya qoyulan məqsədlərin reallaşması, nəzərdə tutulmuş layihələrin icra edilməsi nəticəsində iqtisadi rayonlar yeni inkişaf mərhələsinə qədəm qoyur. Ötən müddət ərzində respublikamızın digər rayonları kimi Hacıqabulda da mühüm işlər görülmüşdür.




Sonra 2017-ci ilin birinci yarısında Hacıqabul rayonunun sosial-iqtisadi inkişafının yekunları barədə RİHB-nın məruzəsi dinlənildi.

Məruzədə qeyd edildi ki, 2017-ci ilin birinci yarısında rayon üzrə ümumi məhsul buraxılışının həcmi 136190,4 min manat olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 34801,9 min manat və 34,3 % çoxdur. Məhsul buraxılışı həcmində qeyri-dövlət sektorunun payı 68,1 % təşkil etmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 1,1 % çoxdur. Bu ilin 6 ayında kənd təsərrüfatı məhsulunun həcmi 65877,3 min manat, sənayedə məhsul buraxılışının həcmi 6146,3 min manat, ticarətdə məhsul buraxılışının həcmi 35678,30 min manat olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatında 9,2 %, sənayedə 191,1 %, ticarətdə 4,4 % artım müşahidə edilmişdir.

Bu müddətdə pərakəndə əmtəə dövriyyəsi 14 798,0 min manat və ya 15,7 % artaraq 109108,0 min manat, iaşə dövriyyəsi 210,0 min manat və ya 12,4 % artaraq 1 900,0 min manat, əhaliyə göstərilmiş pullu xidmətlərin həcmi 1 340,0 min manat və ya 9,7 % artaraq 15 220,0 min manat, nəqliyyatda məhsul buraxılışının həcmi 59,5 min manat və ya 4,1 % artaraq 1 526,6 min manat, yük daşınmalarının həcmi 4,0 min ton və ya 3,4 % artaraq 122 min ton, sərnişin daşınmalarının həcmi 92 min nəfər və ya 3,5 % artaraq 2 709 min nəfər olmuşdur. Rabitə xidmətinin həcmi 310,7 min manat təşkil etmişdir.

2017-ci ilin birinci yarısında Hacıqabul rayonunda iqtisadiyyatın bütün sahələrinə yönəldilmiş əsas kapitala investisiyaların ümumi həcmi 26719,4 min manat olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 23 551 min manat və ya 843,3 % artım müşahidə edilmişdir.

Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Rayonda aqrar islahatların uğurla həyata keçirilməsi kənd təsərrüfatının çoxsahəli inkişaf etdirilməsinə, bu sahədə qazanılan uğurları ilbəil artırmağa zəmin yaradır.

2017-ci ilin məhsulu üçün 14409,0 hektar sahədə taxıl əkilmişdir ki, bu da ötən ilin taxıl əkini ilə müqayisədə 616 hektar artıqdır. Taxıl əkininin 7478 hektarını buğda, 6931 hektarını isə arpa əkini təşkil etmişdir. 14409,0 hektar taxıl sahəsindən 44861 ton məhsul əldə edilmişdir. İstehsal olunmuş taxılın 24136,0 tonunu buğda, 20725 tonunu arpa təşkil edir. Məhsuldarlıq buğda bitkisi üzrə 32,28, arpa bitkisi üzrə isə 29,9 sentner olmuşdur.

2017-ci ilin birinci yarısında 828 hektar sahədə bostan, 427 hektar sahədə tərəvəz, 807 hektar sahədə qarğıdalı, 42 hektar sahədə kartof, 1203,9 hektar sahədə pambıq, 667 hektar sahədə yonca, 556 hektar sahədə şəkər çuğunduru, 156 hektar sahədə soya olmaqla cəmi 4681,9 hektar sahədə yazlıq əkin aparılmışdır ki, bu da keçən ilin müvafiq dövrünün yazlıq əkinləri ilə müqayisədə 587,9 hektar çoxdur.

**(davamı səh. 3-də)**

# Hacıqabul Sənaye Məhəlləsinin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, sənaye sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədi ilə qərara alıram:

1. Hacıqabul rayonunda Hacıqabul Sənaye Məhəlləsi yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədi ilə Hacıqabul Sənaye Məhəlləsinin ərazisində qeyri-neft sənaye sahələri üzrə məhsul istehsalı müəssisələri, habelə xidmət müəssisələri yaradılır;

2.2. Hacıqabul Sənaye Məhəlləsinin fəaliyyətinin təşkili və tənzimlənməsi “Azərbaycan İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyətinə həvalə olunur.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Hacıqabul Sənaye Məhəlləsinin fəaliyyəti üçün Hacıqabul rayonu ərazisində 20 hektar torpaq sahəsinin məqsədli təyinatının dəyişdirilərək sənaye təyinatlı torpaqlar kateqoriyasına keçirilməsini iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Sərəncamın 3.1-ci bəndində nəzərdə tutulmuş torpaq sahəsinin icarəyə vermək hüququ ilə “Azərbaycan İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyətinin daimi istifadəsinə verilməsini dörd ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. Hacıqabul Sənaye Məhəlləsinin fəaliyyəti ilə bağlı müvafiq torpaq sahəsinin istifadəyə yararlı vəziyyətə gətirilməsini, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) qurulması, eləcə də iştirakçıların fəaliyyətinin dəstəklənməsi və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlərin göstərilməsini təmin etmək məqsədi ilə zəruri tədbirlər görsün;

4.2. Hacıqabul Sənaye Məhəlləsinin fəaliyyətinin təşkili, tənzimlənməsi və istehsal olunan sənaye məhsulları üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etsin;

4.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

5. Hacıqabul Rayon İcra Hakimiyyəti bu Sərəncamın 3.1-ci bəndində nəzərdə tutulmuş torpaq sahəsinin məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı bir ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin qarşısında vəsatət qaldırsın.

6. Hacıqabul Sənaye Məhəlləsinin fəaliyyətinin təşkilini, həmin ərazinin istifadəyə yararlı vəziyyətə gətirilməsini, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) qurulmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə 4,0 (dörd) milyon manat ayrılsın.

7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 6-cı hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2017-ci il.*

# "Ailə Akademiyası" layihəsi çərçivəsində növbəti regional tədbir keçirildi




***Rayon Heydər Əliyev Mərkəzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Hacıqabul rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Ailə Akademiyası" layihəsi çərçivəsində növbəti regional tədbir keçirildi.***

Tədbirdə Hacıqabul, İmişli, Sabirabad, Biləsuvar, Beyləqan rayonlarının və Şirvan şəhərinin aktiv yerli özünüidarəetmə orqanalrının nümayəndələri iştirak edirdi.

Tədbridə çıxış edən rayon İcra Hakimiyyəti Başçısının 1-ci müavini Aslan Səmədov ölkəmizdə dövlət ailə siyasəti, ailələrin rifahının daha da yaxşılaşdırılması istiqamətində atılan addımlar barədə məlumat verdi, layihənin daha geniş miqyasda həyata keçirilməsi işində bələdiyyələri fəal olmağa çağırdı.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva tədbirdə çıxış edərək bildirdi ki, Azərbaycanın tarixən gözəl ailə ənənələri olub, həmin ənənələr bu gün də yaşadılmalı, gələcək nəsillərə ötürülməlidir. Ailə dəyərlərinin dövlət siyasətinin prioritet istiqamətlərdən olduğunu deyən A. Sofiyeva vurğuladı ki, aparılan davamlı və məqsədyönlü siyasət bütövlükdə ölkəmizdə ailə institutunun inkişafına öz müsbət təsirini göstərmiş, milli adət-ənənələrimizə və mənəvi dəyərlərimizə əsaslanan Azərbaycan ailəsi möhkəm özüllü ailə modeli kimi cəmiyyətdə öz mövqeyini qoruyub saxlamışdır. Respublikamızda ailə, qadın və uşaq məsələləri ilə bağlı həyata keçirilən Dövlət Proqramlarından, qəbul edilən qanunlardan söhbət açan A. Sofiyeva qeyd etdi ki, aparılan davamlı və məqsədyönlü siyasət bütövlükdə ölkəmizdə ailə institutunun inkişafına öz müsbət təsirini göstərir.

"Ailə Akademiyası" layihəsini əks etdirən təqdimatla çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ailə problemləri şöbəsinin müdiri Gülnarə Məmmədova layihə barədə tədbir iştirakçılarına geniş məlumat verdi.

Şəhər 1 saylı tam orta məktəbin direktoru Cəmilə Ağamalıyeva, YAP üzvü, fəal gənc İlqarə Muxtarova və birinci Udulu kənd bələdiyyəsinin sədri Ramiz Təhməzov təhsil amilinin, hüquqi məsələlər və ailə dəyərlərinin əhəmiyyətindən danışdılar.

Tədbir yekunlaşdıqdan sonra qonaqların iştirakı ilə Hacıqabul şəhər bələdiyyəsi tərəfindən "Ailə Akademiyası" layihəsi çərçivəsində hazırlanan təlimə baxış keçirildi.

Sonda tədbir iştirakçılarına Komitə tərəfindən hazırlanan maarifləndirici çap materialları təqdim edildi.

***Aytən Zülfəliyeva,***
***rayon Heydər Əliyev Mərkəzinin direktoru***

***Hal-hazırda xalqımızda milli-mənəvi ruh yüksəkliyi, hərbi vətənpərvərlik hissləri ali zirvədədir. Bu gün hər bir vətənpərvər Azərbaycan vətəndaşı cənab Prezidentin Qarabağ münaqişəsinin həlli istiqamətində apardığı qətiyyətli və prinsipial siyasəti bəyənir, alqışlayır. Artıq dövlətimiz müasir silahlarla təchiz olunmuş qüdrətli orduya malikdir. Hər bir Azərbaycanlı bilir ki, işğal altında olan Vətən torpaqları vətənpərvər gənclərin şücəti ilə azad ediləcək, böyük qələbəyə imza atılacaq.***

# "Vətən anadır, onu biz qorumalıyıq!.."

## *Həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış əsgərlərin qarşılanmasına həsr olunmuş tədbir keçirildi*



Artıq rayonumuzda da düşmənə sarsıdıcı zərbələr vurmağa hər an hazır olan gənclər yetişməkdədir. Belə gənclərdən bir neçəsi Aprel döyüşlərində öz mərdlik və şücəətlərini nümayiş etdirdilər. Bir neçə gün bundan öncə rayonumuz ordu sıralarından tərxis olunan bir qrup gəncini qarşılayırdı.

Tədbirdən öncə bir qrup gənc ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, abidə önünə tər çiçək dəstələri düzdülər, ulu öndərə ehtiramlarını bildirdilər. Sonra tədbir rayon Heydər Əliyev Mərkəzində davam etdirildi.

Tədbiri rayon İcra Hakimiyyəti Başçısının 1-ci müavini Aslan Səmədov açaraq ordudan tərxis olunan gəncləri təbrik etdi. Qeyd etdi ki, Azərbaycan Respublikasının ordu quruculuğu siyasətində milli hiss, milli birlik, Vətənə, xalqa bağlılıq duyumu əsas prinsiplərdən biridir. Hər bir Azərbaycan əsgəri özünün tarixini, keçmişini, kökünü, soyunu bilməli, onlara qırılmaz köklərlə bağlı olmalı, vətənpərvər olmalı, Vətənini, millətini, dilini sevməlidir. Aprel döyüşlərini xatırladan A.Səmədov bu döyüşlərdə qəhrəmanlıq göstərərək orden və medallara layiq görülmüş hacıqabullu qəhrəmanlardan danışdı.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Xidmətin Hacıqabul rayon Şöbəsinin rəisi Nurlan Abbasov son illər ordumuzun daha da qüvvətlənməsindən, ordu quruculuğu sahəsində bir çox islahatların həyata keçirildiyindən danışdı.

Tədbirdə rayon Veteranlar Şurasının sədri Əlibala Rəsulov, hərbi xidmətdən tərxis olunmuş əsgər Ehtiram Əsədov, N saylı hərbi hissənin zabiti Rəşad Kərəmov çıxış etdilər.

Sonda hərbi xidmətdən tərxis olunmuş gənclərə hərbi billet və qiymətli hədiyyələr təqdim olundu.

***"Hacıqabul"***

# Taxıl biçini başa çatdı, pambıq əkinlərində son becərmə işləri görülür



***Hacıqabul rayonu üzrə 14409 hektar sahədə taxıl biçini müvəffəqiyyətlə başa çatmışdır.***

7478 ha buğda sahəsində, 6931 ha arpa əkini sahələrində biçin aqrotexniki tələblər səviyyəsində aparılmışdır. Ümumən, rayon üzrə zəmilərdən 44861 ton taxıl məhsulu biçilmişdir ki, bunun da 24136 tonu buğda, 20725 tonu isə arpa məhsuludir. Taxıl əkinlərində buğdanın məhsuldarlığı hər hektardan 29,9 sentner olmuş, rayon üzrə isə taxıl istehsalçılarının əldə etdiyi nəticə hər hektardan 31,1 sentner olmuşdur. Torpaq istifadəçilərindən Natiq Dostəliyev Meyniman ərazisində hər hektardan 33 sentner, Qarasu kəndində Murad Abdullayev 32,5 s, Navahı kəndində Natiq Həsənov 29,5 s, Padar qəsəbəsində Səadət Mirzəyeva 33,4 s məhsul əldə etmişlər.

Rayon üzrə 1204 hektar sahədə pambıq əkilmişdir. Padar ərazisində 605 hektar sahədə, Qarasu kəndində 241 ha sahədə, Abdulabadda 38 ha, Meyniman kəndində 165 ha , Ələtlidə isə 155 ha sahədə pambıq əkilmişdir. Pambıq əkinlərində üçüncü dəfə kultivasiya aparılmış, əkinlərə 2 dəfə yemləmə gübrəsi verilmişdir. Yüksək məhsuldarlığa nail olmaq üçün ən əsas şərtlərdən biri bitkilərin ziyanverici həşərat və xəstəliklərdən qorunmasıdır. Bu məqsədlə rayon Kənd Təsərrüfatı İdarəsi Bitki Mühafizə Mərkəzində Eyyub İsgəndərovun təşkilatçılığı ilə pambıq əkinlərində trips, mənənə, tor gənəciyinə(qırmızı hörümçək) qarşı 2 dəfə, pambıq sovkasına qarşı 3 dəfə mübarizə tədbirləri aparılmışdır. Bununla əlaqədar lazımi dərman preparatlarının sifarişləri vaxtında verilmiş və Respublika Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "Aqrolizinq" ASC-nin Hacıqabul rayon filialı vasitəsilə sahələr dərmanlarla təmin olunmuşdur. Ötən illərdən fərqli olaraq bu il qeyd olunan xəstəlik və ziyanvericilərə qarşı mübarizə məqsədilə Mosetan, Abam-28, Avanti dərman preparatlarından istifadə olunmuşdur. Hazırda bu istiqamətdə profilaktiki tədbirlər davam etdirilir. Ötən ilə nisbətən bu il pambıq səpini optimal müddətdə başa çatdırıldığına, vegetasiya müddətində pambıq əkinlərinə yüksək aqrotexniki tələblər səviyyəsində qulluq edildiyinə görə, mütəxəssislərin fikrincə bu il sentyabr ayının ilk günlərindən rayonumuzun pambıq tarlalarında məhsul yığımı başlanacaqdır. Rayonumuzun kənd əməkçiləri, pambıq istehsalçıları möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ölkəmizin iqtisadi, müdafiə qüdrətinin artırılmasında strateji xammal bazası kimi pambıqçılığa verdiyi diqqətə, göstərdiyi qayğıya cavab olaraq pambıq əkinlərində becərmə işlərini yüksək keyfiyyətlə görür, məhsul yığımına böyük məsuliyyətlə hazırlaşırlar.



***Nazim Fətixanoğlu***

# Biz pambığa yalnız xammal kimi baxmamalıyıq...

***Əsası Ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş müasir Azərbaycan Respublikası sürətlə inkişaf edir. Son illər ulu öndərin layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu tədbirlər nəticəsində bu inkişaf yeni nailiyyətlər mərhələsinə qədəm qoymuşdur. Bunu günügündən gözəlləşən regionlarımızın və kəndlərimizin timsalında daha aydın görmək olar.***

Ölkədə qeyri-neft sektorunun inkişafı istiqamətində atılan addımların böyük bir qismi aqrar sahəni əhatə etməkdədir. Bu mənada indi aqrar sektorda ötən illərə nisbətdə daha dinamik inkişaf müşahidə olunur. Azərbaycanda pambıqçılığın inkişafı mühüm sosial əhəmiyyət daşıyır. Lakin biz pambığa təkcə xammal kimi baxmayıb, ondan digər məhsullar istehsal edərək dünya bazarına ixrac etsək, daha çox qazanc əldə edə bilərik.

Pambıqçılıq Azərbaycanda ənənəvi bir sahədir və onun inkişafı üçün ölkəmizdə coğrafi baxımdan təbii və münbit şərait var.

Əsrlər boyu xalqımız pambıqçılıqla məşğul olub. Ancaq pambıqçılığın ən sürətli və uğurlu inkişaf dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 1970-ci illərdə və eyni zamanda, 1980-ci illərin əvvəllərində Azərbaycanda pambıqçılıq sürətlə inkişaf edib. Əgər biz statistikaya nəzər salsaq görərik ki, ulu öndərin dövründə Azərbaycanda pambıq tədarükü bir neçə dəfə artıb. Amma ötən əsrin 90-cı illərindən sonra müəyyən problemlər yarandı. İndi isə prezident İlham Əliyevin rəhbərliyi altında artıq dövlət tərəfindən də bu sahəyə xüsusi diqqət yetirilir. Ölkə başçısının bu sahəyə uyğun müvafiq göstərişlərindən sonra Azərbaycanda pambıqçılığa maraq daha da artıb.

Pambıqçılığın inkişafı ilə ölkədə yeni iş yerlərinin yaradılması istiqamətində də əsaslı dönüş yaranacaq.

Çünki Aran zonasında yaşayanlar pambığın necə qiymətli bir bitki olduğunu çox yaxşı bilir. Pambıqçılığın inkişaf etdirilməsi işsizlik probleminin aradan qaldırılmasında böyük rol oynayacaq. Bu, əlbəttə ki, məşğulluğun artırılmasına, işsizliyin azalmasına gətirib çıxaracaq. İşləmək istəyən vətəndaşlar özləri üçün iş tapa biləcəklər. Çünki pambıqçılıq əməktutumlu kənd təsərrüfatı sahəsidir. Bölgələrdə məşğulluğun artırılması baxımından, pambıqçılığın çox böyük xeyri var. Bunu, artıq pambıq əkən bütün rayonların torpaq mülkiyyətçiləri yaxşı bilirlər və görürlər ki, bu gün işləmək istəyən, ancaq hələ işsiz qalan vətəndaş özü üçün iş tapa bilər.

***İslam Hüseynov,***
***sahibkar***

# Hacıqabul rayonunun sosial-iqtisadi inkişaf dinamikası birinci yarımildə də davam etmişdir

(əvvəli səh. 1-də)

2017-ci ilin birinci yarısında 3765 ton tərəvəz, 2185 ton meyvə, 461 ton kartof istehsal olunmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə meyvə istehsalı 3,8 ton, kartof istehsalı 22 ton çox olmuşdur.

Rayonda heyvandarlıq məhsulları istehsalında da artım qeydə alınmışdır. Hesabat dövründə süd istehsalı 4 ton artaraq 9844 tona, yumurta istehsalı 6 508 min ədəd və ya 4,0 % artaraq 168113 min ədədə çatmışdır. Rayon üzrə iribuynuzlu heyvanların baş sayı 354 baş və ya 0,9 % artaraq 38560 başa, xırda buynuzluların sayı isə 976 baş və ya 0,7 % artaraq 136368 başa çatmışdır. Hesabat dövründə 4461 ton ət istehsal edilmişdir.

"Aqrolizinq" vasitəsilə bu ilin birinci yarısında kənd əməkçilərinə 106,0 ton müxtəlif növ mineral gübrələrin və ziyanvericilərə qarşı 220 litr kimyəvi preparatların 70 % güzəştlə satışı həyata keçirilmişdir.

Əkinlərin su təminatının yaxşılaşması üçün rayon Suvarma Sistemləri idarəsi tərəfindən cari ilin birinci yarısında 163 km-ə yaxın magistral və təsərrüfatdaxili kanallarda lildən təmizləmə işləri yerinə yetirilmişdir. Əkinlərin suvarılması üçün su mənbələrindən 61,74 milyon metr3 su götürülmüş, su ayrıclarından Sudan İstifadəedənlər Birliklərinə 46,31 milyon metr3 su verilmişdir. Baş Şirvan Kollektorunun İstismarı İdarəsi tərəfindən Hacıqabul rayonunun təsərrüfatdaxili və təsərrüfatlararası kollektor-drenaj şəbəkələrində uzunluğu 8760 pm olmaqla 21940 metr3 həcmində lildən təmizləmə işləri aparılmışdır. Baş Şirvan Kollektorunun Hacıqabul rayonu ərazisindən keçən hissəsində 10240 pm lildən təmizlənmə işləri görülmüş, işin həcmi 25740 metr3 olmuşdur.

"Regionların sosial-iqtisadi inkişafı" Dövlət Proqramının icrası çərçivəsində Muğan, Padar qəsəbələrində və Qarasu kəndində torpaq sahələrinin suvarılmasını təmin etmək məqsədilə 53,95 km ümumi uzunluğu və 5 kub metr saniyə su tutumu olan Hacıqabul Magistral kanalında işlər davam etdirilir. Hal-hazırda magistral kanalın 28,2 km-lik hissəsi və Padar-Qarasu ərazisində müxtəlif sərfiyatlı 21,2 km təsərrüfat daxili qol kanallar tikilib başa çatdırılmışdır. Bu kanallar ilə cari təsərrüfat ilində ümumilikdə 5980 ha əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi nəzərdə tutulur. Hal-hazırda ərazidə 850 ha sahədə pambıq əkinlərinin ikinci suvarılması başa çatmaq üzrədir, bundan başqa 525 ha çuğundur, 560 ha qarğıdalı, 100 ha bostan-tərəvəz, 156 ha soya və 70 ha həyətyanı sahələrin suvarma suyu ilə təminatı da həyata keçirilir.

Cari ildə rayonumuzda 1203.9 ha sahədə pambıq əkilmişdir ki, bu da keçən ilin pambıq əkinindən 677.9 ha və ya 2,3 dəfə çoxdur. 800 ha sahədə pambıq əkilməsi üçün 26 istehsalçı ilə "MKT İK" MMC arasında, 403,9 ha sahədə pambıq əkilməsi üçün 32 istehsalçı ilə "Hacıqabul KT" MMC arasında müqavilələr bağlanmışdır. Məqsədimiz əkiləcək pambıq sahələrinə yüksək qaydada aqrotexniki qulluq göstərməklə 2400 tondan çox pambıq istehsal etməkdir.

Rayonda baramaçılığın inkişafı da mühüm əhəmiyyət kəsb edən sahələrdən biridir. Bu məqsədlə keçən ilin payızında rayon ərzisində 28 000 ədəd tut (çəkil) ağacı əkilib, tinglərə aqrotexniki qaydada qulluq edilir, becərilir və vaxtında suvarılır. Bu il rayonda ilk dəfə olaraq kümçülər tərəfindən 250 kq barama istehsal edilmişdir.

Rayonda aqroparkların yaradılması istiqamətində bir sıra işlər həyata keçirilmişdir.

Hacıqabul rayonunun Padar ərazisində 1625 hektar sahədə iri əkinçilik təsərrüfatı yaradılmışdır. Bu təsərrüfatda infrastruktur yaradılmış, pivot suvarma sistemi quraşdırılmış, texnikalar alınmış, ofis, anbar, işçilər üçün yeməkxana, texnikalar üçün qaraj tikilmişdir. 611 ha sahədə buğda, 525 ha sahədə şəkər çuğunduru, 100 ha sahədə pambıq, 75 ha sahədə qarğıdalı, 156 ha sahədə soya əkilmişdir. Aqroparkda 2000 başlıq heyvandarlıq kompleksinin tikintisinə başlanılmışdır.

Hacıqabul rayonunun Meyniman kəndində sahibkar Natiq Dostəliyevə məxsus 1936 ha torpaq sahəsi olan aqroparkda infrastruktur yaradılmış, 2 ədəd mal damı, 1 ədəd yem anbarı, 4 ədəd qoyun damı, inzibati bina və digər yardımçı binalar tikilmişdir. Aqroparkın su, işıq və qaz təminatı mövcuddur. Aqroparkın nəzdində 1560 baş qoyunu olan ferma fəaliyyət göstərir. Cari ildə 2 ha sahədə müasir tipli istilikxananın tikintisi başa çatdırılmışdır. Daha hər biri 2 ha olan 2 ədəd istilikxananın tikintisi davam etdirilir. Bundan əlavə 150 ha sahədə buğda, 245 ha sahədə arpa, 74 ha sahədə yonca, 20 ha sahədə soğan, 70 ha sahədə pambıq, 10 ha sahədə bostan tərəvəz əkilmiş, 57 ha sahədə meyvə bağı salınmışdır.

Rayonun "Pirsaat massivində 4800 ha əkinə yararlı torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi" layihəsi çərçivəsində işlərə başlanılmışdır.

Layihə üzrə 27605 metr uzunluğunda suvarma kanalının çəkilməsi nəzərdə tutulub. Layihə işləri 2 mərhələyə bölünmüşdür. 1-ci mərhələdə 5 km uzunluğunda torpaq kanal çəkilib başa çatdırılmışdır. 1-ci mərhələnin layihə dəyəri (layihə-smeta sənədlərinin hazırlanması, texniki şərtlərin alınması, ekspertiza və qiymətqoyma xərcləri ilə birlikdə) 1,827 milyon manat olmuşdur. Hal-hazırda 2-ci mərhələ üçün layihə-smeta sənədləri işlənib tamamlanmaq mərhələsindədir. Hər iki nasos stansiyasının xarici elektrik təchizatının trassasının aidiyyəti təşkilatlarla (Qarasu Əməliyyat Şirkəti, "Şirvan OYL" Əməliyyat Şirkəti, "Azəravtoyol ASC") razılaşdırılması üçün müraciət olunmuşdur. 2-ci mərhələdə 3,6 km uzunluğunda beton kanalın tikintisinə başlanılmışdır, 3,0 km məsafədə kanalın torpaq yatağı hazırlanmış, 550 metr hissəyə beton tökülmüşdür. Kanalın 8 km-lik boru xətti olan hissəsi üçün 9,5 km uzunluğunda (bir xətli) borular tədarük edilmiş, faskalanıb, izolyasiya olunmuşdur. 500 metr boru qaynaq olunub, boru xəttinin keçəcəyi 4,5 km ərazidə torpaq planlama işləri aparılıb başa çatdırılmışdır. Boruların qaynaq işi hissələr üzrə başa çatdıqdan sonra düzülmə işləri həyata keçiriləcəkdir.

Hacıqabul rayonunun inzibati ərazisində müasir iri taxılçılıq və yemçilik təsərrüfatlarının yaradılması üçün 30 000 hektar torpaq sahəsinin otlaq kateqoriyasından əkin kateqoriyasına dəyişdirilməsi barədə Hacıqabul rayon İcra Hakimiyyətinin aidiyyəti nazirliklərlə razılaşdırılmış təklifləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 528s nömrəli 05 oktyabr 2016-cı il tarixli Sərəncamı ilə qəbul edilmişdir. Həmin ərazidə pivot suvarma sistemləri tətbiq etməklə iri aqroparkların yaradılması nəzərdə tutulmuşdur. Hal-hazırda ərazinin 10 000 hektarlıq hissəsini suvarma suyu ilə təmin edəcək layihə hazırlanaraq tikintisinə başlanılmışdır. Tikinti işləri "Azərsu" ASC tərəfindən həyata keçirilir.

Padar, Qarasu ərazisində olan 10000 hektar əkinə yararlı iri münbit torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsi məqsədi ilə 27 km uzunluğunda 1400 mm-lik boru xətlərindən istifadə etməklə 17,0 km uzunluğunda magistral suvarma kanalının çəkilməsi nəzərdə tutulub. Magistral kanal 10 km məsafədə iki xətli, təxminən 7 km məsafədə bir xətli olacaqdır. Tikintinin layihə-smeta sənədləri işlənib başa çatdırılaraq ekspertizaya təqdim olunmuşdur. Magistral kanalın neft və qaz kəmərlərindən, dəmir yolu xəttindən və avtomobil yolundan keçən hissələri ilə bağlı texniki şərtlər alınmışdır. Hər biri 25 min kub metr həcmdə olan 2 ədəd su anbarının tikintisinə başlanılmışdır. Hal-hazırda borular tədarük olunaraq montaj işləri aparılır və 14,0 km uzunluğunda metal boruların montajı başa çatdırılmışdır.

Hacıqabul rayonunun Atbulaq kəndində yerləşən 19,91 hektar torpaq sahəsində "AZERBROOD" MMC tərəfindən illik istehsal gücü 9,6 milyon ədəd yumurta olan quşçuluq müəssisəsinin tikintisinə başlanılmışdır. Tikinti işləri başa çatdıqdan sonra burada 100 nəfər işlə təmin olunacaqdır.

Hacıqabul rayonunun Atbulaq kəndində "Hajigabul Greenhouse" MMC tərəfindən 17 hektar ərazidə müasir tipli istixananın tikintisinə başlanılmışdır. Tikinti işləri başa çatdıqdan sonra burada 200 nəfər işlə təmin olunacaqdır.

Respublika Prezidenti cənab İlham Əliyev ekoloji məsələləri, yeni yaşıllıqların salınmasını, onun qorunması və artırılmasını daim diqqət mərkəzində saxlayır. Möhtərəm Prezidentimizin bu sahəyə tükənməz qayğı və diqqəti hamımızı ətraf mühitin sağlamlaşdırılması, xüsusilə yeni salınmış yaşıllıqların salınması istiqamətində fəaliyyətimizi artırmağa sövq edir.

Şəhərdə, rayonun qəsəbə və kəndlərində geniş vüsət alan yaşıllaşdırma kampaniyası 2017-ci ilin birinci yarısında də davam etdirilərək 7000 ədəd ağac və 3500 ədəd gül kollarının əkilməsi həyata keçirilmişdir.

İqtisadiyyatımızın sosial yönümlü olması, maliyyə imkanlarımızın artması xalqımızın rifahının daha da yaxşılaşdırılmasına xidmət edir.

Hesabat dövründə yerli büdcənin mədaxil hissəsi 2185499 manat proqnoza qarşı 2481145 manat və ya 113,5 % icra edilmiş, plandan artıq qalan 646338 manat vəsait mərkəzi xəzinədarlığa köçürülmüşdür. Rayon büdcəsinin xərc hissəsi 1982961 manat təyinata qarşı 1709588 manat, yəni 86,2 % icra edilmişdir.

Əhalinin həyat səviyyəsinin göstəricisi olan orta aylıq əmək haqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,4 manat artaraq 305,2 manat təşkil etmişdir. Rayon əhalisinin pul gəlirləri ötən dövrün müvafiq dövrü ilə müqayisədə 3 493,0 min manat və ya 2,4 % artaraq 1 48995,0 min manata çatmışdır. Məşğul əhalinin sayı 300 nəfər artaraq 36,2 min nəfər olmuşdur. Məşğul əhalinin 5,6 min nəfəri və ya 15,5 %-i dövlət sektorunda, 30,6 min nəfəri və ya 84,5 %-i qeyri-dövlət sektorunda çalışır.

Hacıqabullular möhtərəm Prezidentimizin rayonumuza göstərdiyi diqqət və qayğıya özlərinin yüksək əmək və siyasi fəallığı ilə cavab verərək rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsi, əhalinin rifahının daha da yaxşılaşdırılması istiqamətində ardıcıl işlər həyata keçirəcəkdir.

Məruzə ətrafında rayon Suvarma Sistemləri İdarəsinin rəisi İbrahim İbrahimov, Pirsaat Qış Otlaqlarının Su ilə təminatı İdarəsinin rəisi Mafisəd Cəfərov, Mərkəzi Rayon Xəstəxanasının baş həkimi Beydulla Qarayev, sahibkar İslam Hüseynov çıxış etdilər.

Hesabat yığıncağında məruzə və çıxışlar dinlənilərək RİH Başçısının 2017-ci ilin birinci yarısında gördüyü işlər qənaətbəxş hesab edildi.

*"Hacıqabul"*

# APREL DÖYÜŞLƏRİNİN HACIQABULLU QƏHRƏMANLARI







***Sabir Quluyev haqqında rayon Təhsil Şöbəsinin metodisti Nəriman Ağayevdən eşitdim, sonra da elə ondan aldığım telefon nömrəsi ilə həmyerlimiz, Lələtəpədəki kəşfiyyat bölümünün rəhbəri, baş leytenant Abbas Səfərova zəng etdim və bir xeyli söhbət etdik.***

Abbasın atası Misirxan müəllim vaxtilə mənimlə birlikdə şəhər 3 saylı orta məktəbdə işləmişdi və məktəbin o zamankı direktoru Teymur Salahov Misirxan müəllimə "Mübariz müəllimin kadrı" deyərdi. Misirxan müəllim şagirdlər arasında böyük hörmət sahibi idi.

Abbasdan onun yanında olan hacıqabullunun kim olduğunu soruşdum: - Gizir Sabir Səxavət oğlu Quluyevdir - dedi.

Sabir 17 noyabr 1989-cu ildə Hacıqabul şəhərində anadan olmuş, 2007-ci ildə Fariz Cəbrayılov adına 2 saylı şəhər orta məktəbini bitirmiş (xatırladaq ki, həmyerlilərimiz, Aprel döyüşlərinin qəhrəmanları, "Azərbaycan Bayrağı" ordenli Tahir Misirxanov və 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medallı İlkin Məmmədov da bu məktəbin yetirmələridir), həmin ildə də Naxçıvana hərbi xidmətə getmiş, 2008-ci ildə isə Silahlı Qüvvələrdən tərxis olunmuşdur.

O, 2011-ci il 11 aprel tarixdən həmin ilin 27 avqust tarixinə kimi Müdafiə Nazirliyinin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qoşun kəşfiyyat taqım komandirinin müavini kursunu bitirmiş, həmçinin xüsusi təyinatlılar üçün kursda da 3 ay müdavim olmuşdur.

İl yarım Beyləqanda xidmət etmiş, bu gün də Füzulinin Horadiz şəhərindəki hərbi hissədə gizir rütbəsində xidmət edir.

Sabir Quluyev erməni təxribatının qarşısının alınmasında daim ayıq-sayıq olmuş, o cümlədən Aprel döyüşlərində fərqlənmişdir.

Həmin vaxt blindaja düşən mərmi Sabirin evdən gətirdiyi bütün əşyalarını məhv etmiş, yalnız telefonu yoldaşlarında olduğu üçün salamat qalmışdır.

...O günü Sabirgilin evində bərk qarışıqlıq idi: ondan xəbər çıxmadığı, telefonuna zəng çatmadığı üçün doğmaları çox qorxmuşdular. Nəhayət, Sabirin salamat olması xəbəri gəldi...

Sabir Səxavət oğlu Quliyev nümunəvi xidmətinə görə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi"yubiley medalı ilə təltif olunmuşdur...

Yazı çapa hazırlanarkən Sabirin məzuniyyət alaraq, evə gəldiyini eşitdim və onunla görüşə getdim.

Ata-bala-Sabirlə Səxavət məni evə dəvət etdilər. Həyətdə, evdə-eşikdə bir səliqə-sahman olsa da, eşitdik ki, həyət-bacada, evdə görülən bütün işləri Səxavət yerinə yetirir. Həyat yoldaşı 2009-cu ilin 16 dekabrında böyrək çatışmazlığından vəfat edib.

Səxavət oğluna və qızına həm ata, həm də ana olub. Onun tələsik bişirib gətirdiyi halal çörəyindən mən də bir tikə yedim...

Lakin bu gün əlindən hər iş gələn Səxavət işsizdir. Arzu edərdik ki, cəbhə zonasında rəşadət göstərmiş qəhrəman həmyerlimiz Sabir Səxavət oğlu Quluyev sağ-salamat evinə qayıtsın və tezliklə ailə həyatı qursun, özü övlad, atası isə nəvə sahibi olsun.

Digər bir qəhrəmanımız isə Rövşən Mikayılov gözlərimin önündə böyümüş qonşu uşağıdır, ona məktəbdə dərs də demişəm.

Rövşən 18 oktyabr 1996-cı ildə Hacıqabulda dünyaya gəlmiş, erkən yaşında atasını, daha əvvəl isə iki əmisini itirmişdir. Ailənin bütün ağırlığı nənəsi Telli xanımın üzərinə düşmüşdür.

2003-cü ildə şəhid Fərhad Süleymanov adına şəhər 3 saylı tam orta məktəbin birinci sinfinə getmiş Rövşən 2012 - ci ildə IX sinfi bitirərək, Bakı 6 saylı peşə liseyində "Bosman" ixtisası üzrə təhsil almağa başlamış və 2015-ci ildə IV dərəcəli bosman ixtisasına yiyələnməklə, həmin məktəbi bitirmişdir.

Rövşən 6 iyul 2015-ci il tarixdə cəbhə bölgəsinə hərbi xidmətə yola düşmüşdür. Tərtər bölgəsindəki hərbi xidmətdə düşmən təxribatı bitmək bilmirdi. Rövşən top komandiri, tuşlayıcı isə həmyerlisi Kamal Hicran oğlu Kamalov idi.

1994-cü il təvəllüdlü Kamal da Hacıqabulda anadan olmuş, o da əvvəlcə 3 saylı məktəbdə oxumuş, sonradan 8 saylı humanitar fənlər liseyində təhsil almışdır. Kamal da eynən dostu Rövşən kimi orta məktəbi IX sinfə kimi oxumuş, 2010-cu ildə Dəniz Balıq Sənayesi Kollecinə daxil olmuş, 2015-ci ildə "Gəmiqayırma" ixtisasına yiyələnməklə, kolleci bitirmişdir. O, 2015-ci ilin iyun ayında Tərtər bölgəsinə hərbi xidmətə yollanmışdır.

2016-cı il aprelin 1-dən 5-ə kimi baş verən qanlı döyüşlərdə hər iki dost: kiçik çavuş Rövşən və sıravi Kamal qəhrəmancasına vuruşmuş, yüksəkliklərin alınmasında misilsiz şücaət göstərmiş, sərrast atəşlərlə düşmənə böyük itkilər verməklə, piyadaların yolunu təmizləmişlər.

Qanlı döyüşlər əsgərlərimizin qələbəsilə bitdi...Şanlı əsgərlərimiz də itkilər verdilər. Zabitlərdən kapitan İnqilab Quluyev və baş leytenant Rəşad Mehdiyev şəhid oldular, batalyon komandiri yaralandı. Əsgər yoldaşlarından da yaralananlar vardı. Yüzlərlə düşmən əsgəri məhv edilmiş, çoxlu sayda düşmən texnikası sıradan çıxarılmışdı.

25-27 aprel tarixində də düşmən böyük qüvvə ilə hücuma keçdi, bir gecədəki döyüş ərzində 700-800 ədəd mərmi atılmış, yer-göy lərzəyə gəlmişdi. Yenə də bizdən yaralanan və ölənlər oldu, düşmən isə böyük itkilər verərək, geriyə çəkildi. Sonrakı dövrdə baş verən təxribatlarda da düşmən layiqincə dəf edildi.

...O gecələrdən salamat qurtarmaq möcüzə idi. Onları anaların, nənələrinin, bacılarının duaları xilas etmiş, bir də soyuqqqanlı olmaları, özlərini itirməmələri də əsas şərtlərdən biri idi.

Dostlar - Rövşən və Kamal doğma Hacıqabulumuzun adını ləyaqətlə doğrultdular.

Bu ilin yanvar ayında hər iki dost ordudan tərxis olunaraq doğmalarının yanına qayıtdılar.

Bu gün onların bir fikri var.İxtisasları üzrə işləmək, ailəyə kömək etmək. İnanırıq ki, lazımi anda, çətin günlərdə Vətəni layiqincə qorumuş Rövşən və Kamal özlərinə iş taparaq işləyəcək, hər an Vətənin çağırışına hay verəcəklər

***M.Xəlilov***

# HACIQABUL

№ 12 (671) 03 avqust 2017-ci il

## 2017-ci il avqust ayı üçün Hacıqabul rayon İcra Hakimyyəti Başçısı Aparatında vətəndaşların qəbul günləri

| | Vəzifəsi | Həftənin günləri | Saat |
|---|---|---|---|
| 1 | İcra Hakimiyyətinin Başçısı | I | 15:00 |
| 2 | İcra Hakimiyyəti Başçısının birinci müavini | II | 14:00 |
| 3 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | III | 14:00 |
| 4 | Başçının müavini-İctimai, siyasi və humanitar məsələlər şöbəsinin müdiri | IV | 14:00 |
| 5 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanı ilə iş şöbəsinin müdiri | V | 14:00 |
| 6 | Memarlıq və tikinti şöbəsinin müdiri | VI | 10:00 |

**Qeyd: Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları:** (02120) 4-41-91, (02120) 4-41-58

*Həkim məsləhəti*

# Günvurmadan necə qorunmalı?

***Son vaxtlar respublikanin bəzi bölgələrində yüksək hava temperaturu müşahidə olunur. Belə isti havalarda insanların tez-tez rastlaşdığı hallardan biri də günvurmadır.***

Günvurma - orqanizmin ətraf mühitin yüksək temperaturuna patoloji reaksiyadır. Yayın qızmar günlərində günəş daha çox ultrabənövşəyi şüalar saçdığına görə günvurma halları çoxalır.

Günvurmanın əlamətlərini, ona qarşı hazırlıq tədbirlərini, günvurmadan necə qorunmağı və baş verdiyi zaman zərərçəkənə ilkin tibbi yardımın necə göstərildiyini maraqlananlara çatdırmaq üçün rayon Mərkəzi Xəstəxanasının həkimi Hafiz Bəşirova müraciət etdik. O, dedi:

- Günvurma günəş şüalarının uzun müddət ərzində orqanizmə təsiri nəticəsində baş verir. Bu halın yaranmasını tezləşdirən amillərdən biri atmosferdə nəmliyin yüksək olması, bədənə kip yapışan paltar geyinilməsi, alkoqollu içkilər qəbulu və ürək-damar xəstəlikləridir. Günvurma başaçıq şəkildə xeyli müddət gün altında qaldıqda baş verir. Belə hallarda günəş şüalarının təsiri nəticəsində beyinə qan axını artır və beyinin qan dövranı pozulur. Bəzən xırda beyin qan damarlarının qırılması baş verir ki, bu da mərkəzi və periferik əsəb sisteminin pozulmasına gətirib çıxarır. Günvurma zamanı bədənin istiliyini nizamlayan sistem pozulur, həddən artıq su və duz itirilir. Qızdırma, təzyiqin düşməsi, nəbzin sürətlənməsi, yorğunluq, halsızlıq, bədən ağrıları, ürəkdə ritm pozuntuları, başağrısı və narahatlıq baş verir. Bəzən burundan qanaxma və görmə qabiliyyətinin pozulması halları da müşahidə edilir. Günvurma ilə əlaqədar yaranmış ağır hallarda qıcolmalar və huşun itirilməsi də ola bilər. Bəzi hallarda bu əlamətlər dərhal, bəzi hallarda isə açıq günəş altında qaldıqdan bir neçə saat sonra baş verir. Günvurma yüngül, orta və ağır dərəcəli olur.

Yüngül dərəcəli günvurmada başağrıları, ürəkbulanma, gicəllənmə və ümumi zəiflikdən şikayət edilir. Təzyiq normal, bədənin temperaturu isə norma daxilində olur. Bəzi hallarda bəbəyin genişlənməsi müşahidə edilir.

Orta dərəcəli günvurmada ürəkbulanma və qusma ilə müşayiət olunan başağrısı, kəskin halsızlıq və qulaq batmasından şikayət olunur. Bədənin temperaturu 38-40 dərəcəyə kimi qalxır. Ürək döyüntülərinin sayı artır, nəfəsalmada tezləşmə baş verir, təzyiq artır, özündəngetmə halları müşahidə olunur.

Ağır dərəcəli günvurmada mərkəzi sinir sistemində ciddi dəyişikliklər müşahidə olunur. Qan-damar sisteminin fəaliyyəti pozulur. Arterial təzyiq aşağı düşür. Ürək, böyrək, ağciyər kimi həyati vacib orqanların fəaliyyəti çətinləşir. Yüngül özündəngetmədən komaya qədər hallar, sayıqlama, qarabasma, bədən temperaturunun 40 dərəcədən yüksək olması müşahidə olunur, hətta ölüm halı da baş verə bilər.

Günvurma zamanı ilk tibbi yardım göstərmək üçün qeyd etdiyimiz əlamətlər müşahidə olunan insanı ilk növbədə kölgəli yerə çəkmək, bədəninə havanın rahat daxil olması üçün geyiminin yaxasını açmaq və sərinləşdirici maye içirtmək, üzünü və sinəsini soyuq su ilə silmək lazımdır. Havanın ağciyərlərə sərbəst daxil olması üçün zərərçəkənin başının altına hansısa əşya qoymaq məsləhətdir. Başına, boyunun yan tərəflərinə, qoltuqaltı və qasıq nahiyələrinə buz qoymaq və ya bu, mümkün olmadıqda, soyuq suda isladılmış parça ilə kompres etmək lazımdır. Əgər temperaturu yüksəkdirsə, bədəni soyuq suda isladılmış parçaya və ya dəsmala bükmək, başına isə buz qoymaq vacibdir. Həmin insanda halsızlıq, huşunu itirmə və ya dəridə həddindən artıq quruluq müşahidə olunarsa, dərhal təcili tibbi yardım xidmətinə müraciət olunmalı və ya ilk tibbi yardım göstərdikdən sonra mümkün qədər tez bir zamanda xəstəxanaya aparılmalıdır. Huşunu itirdiyi halda zərərçəkənə naşatır spirti iylətmək, nəfəs almadıqda isə süni tənəffüs vermək vacibdir.

Günvurmadan qorunmaq üçün havanın temperaturunun yüksək olduğu gündüz saatlarında açıq havada az hərəkət etmək məsləhətdir. İsti günlərdə çoxlu maye qəbul edilməlidir. Qızmar günəş şüalarından özünüzü qorumaq üçün geniş kənarlı papaq və ya baş örtüyündən, çətir və günəş gözlüyündən istifadə edilməlidir. Baş örtüyünün açıq rəngdə olması məsləhətdir. Çölə çıxarkən dərinizin rahat nəfəs alması üçün açıq rəngli pambıq, ya da kətan parçalardan tikilmiş yüngül və tərlətməyən rahat geyimlərdən istifadə etmək lazımdır. Çimərliyə günəş vannası qəbul etmək üçün səhər saat 11-dək, axşamüstü isə saat 17-dən sonra getmək məsləhətdir. Suya girməzdən əvvəl sahildə əlinizin dərisinə, sifətinizə və bədəninizə krem, gel və s. qoruyucu vasitələrdən sürtün. Çimərlikdə olduğunuz zaman heç bir halda spirtli içki qəbul etməyin. Qoca və uşaqları havanın çox isti vaxtlarında günəşin yandırıcı şüasından qorumaq, çimərliklərdə və açıq havada olmaqdan çəkinmək də mühüm şərtlərdən biridir.

Həkimlərin məsləhət və tövsiyələrinə görə, qızmar yay günlərində insanlar istirahət və gəzinti saatlarını elə bölməlidirlər ki, günvurma ilə əlaqədar problemlə üzləşməsinlər. Bundan əlavə, qida rejiminə xüsusi diqqət yetirilməli, xüsusilə də meyvə-tərəvəzə, müxtəlif şirələrə və rahat həzm olunan qidalara üstünlük verilməlidir.

Günəşin və istinin mənfi təsirlərindən qorunmaq üçün verilən tövsiyələrə laqeyd qalmayın. Unutmayın ki, adi bir diqqətsizlik, səhlənkarlıq insanın həyatına son qoya bilər.

## Elan

Hacıqabul şəhər sakini Abasov Şaban Hüseynağa oğluna məxsus ABN-018845 nömrəli traktorçu vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Rayon Aqrar İslahat Komissiyası tərəfindən Əliyeva Nərgiz Hacıxəlil qızının adına verilmiş JN-460, kodu 91007027 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Rayon Aqrar İslahat Komissiyası tərəfindən 11 aprel 2006-cı il tarixdə Navahı kənd sakini Qədirova Firəngiz Hüseynqulu qızının adına verilmiş JN-562, kodu 91006005 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Rayon Aqrar İslahat Komissiyasının 08 sentyabr 1997-ci il tarixli qərarı ilə Süleymanova Nazən Məmmədhüseyn qızının adına verilmiş JN-337, kodu 91004018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Hüquqların Dövlət Qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən Mürvətov Ağaqardaş Balakişi oğlunun adına verilmiş RX -1014756 nömrəli Çıxarış itdiyi üçün etibarsız sayılır.

***

Rayon Aqrar İslahat Komissiyasının qərarı ilə Qızılburun kənd sakini Həşimova Ballı Bəhərçin qızının adına verilmiş JN-0079, kodu 91003038 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Rayon Aqrar İslahat Komissiyasının 16 iyun 2003-cü il tarixli qərarı ilə Qədirov Adil Mehdi oğlunun adına verilmiş JN-0033, kodu 91008048 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 30 iyul tarixli qərarı ilə Atakişiyev Rafiq Xanalı oğlunun adına verilmiş JN-361, kodu 91002018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Mərkəzi rayon Xəstəxanasının cərrahiyyə şöbəsinin müdiri Hacı Həmidov və şöbənin kollektivi tibb bacısı

**Sahibə Ələkbərovanın**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Rayon Suvarma Sistemləri İdarəsinin rəisi İbrahim İbrahimov və idarənin kollektivi iş yoldaşları

**Ülkər Abıyevanın**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

# Qarasu kəndinin Qarasu gölü

*Dedilər arayıb yaddaşa gətir,*
*Qarasu kəndinin Qarasu gölün.*
*Qələmə almayıb kimsə bir sətir,*
*Qarasu kəndinin Qarasu gölün.*
*Məzgəgli, turaclı, ceyranlı çölün.*

*Ov ovladı bura ova gələnlər,*
*Qayıqla ətrafı seyrə dalanlar,*
*Az olmayıb gözlərilə görənlər,*
*Qarasu kəndinin Qarasu gölün.*
*Məzgəgli, turaclı, ceyranlı çölün.*

*Yaşılbaş sonası hay-küy salardı,*
*Durnaları üzüb qanad çalardı,*
*Qaşqaldağı əhatəyə alırdı,*
*Qarasu kəndinin Qarasu gölü.*
*Məzgəgli, turaclı, ceyranlı çölün.*

*Sel suyu basırdı obanı, kəndi,*
*Alırdı altına Zəncirli bəndi,*
*Yaddaşdan silməyib yaşlı əfəndi,*
*Qarasu kəndinin Qarasu gölün.*
*Məzgəgli, turaclı, ceyranlı çölün.*

*Növbənöv balığın demirəm hələ,*
*Vəhşi qabanların gətirrəm dilə,*
*Təbii sərvətdi, düşmüşdü ələ,*
*Qarasu kəndinin Qarasu gölü.*
*Məzgəgli, turaclı, ceyranlı çölün.*

Bəli doğurdan da Qarasu gölü təbii sərvət idi. Gölün yaranma tarixi çox qədim əsrlərə gedib çıxır. Uzunluğu 30-40 km, eni 2-3km olan göl ucqar yerlərdən sel sularını çəkib özünə cəlb edirdi. Hətta gölün suyu çox olanda Hacıqabul ərazisində olan Zəncirli bəndin üstündən aşıb Hacıqabul gölünə tökülürdü. 1941-ci ildə gölün suyu o qədər qalxmışdı ki, su kəndi mühasirəyə alıb dəmir yolu körpüsünün altından keçərək üzü şimala doğru hərəkət etmişdir. Kəndin 70 metrliyində bənd atılmışdı ki, su kəndi basmasın.

Qarasu kəndi vaxtilə Şamaxı quberniyasının qəzası olmuşdur. İndiki Padar vağzalından Navahı vağzalına qədər Qarasu qəzasının tabeçiliyində olmuşdur. Qəzaya rəhbərliyi salyanlı Xankişi bəy edirdi. Xankişi bəyin idarəçilik etdiyi ev 1965-ci ilə qədər Qarasu kəndində dururdu. Sonradan həmin evi yerli sakinlərdən biri olan Qarasulu Həmid adlı bir nəfər alıb sökdü və yerində yaşayış binası tikdi.

Qarasu kənd əhalisi heyvandarlıq və ovçuluq ilə məşğul idi. Kəndin şimal hissəsi Quba-Qusar rayonunun heyvandarlıq otlağı idi. Payız-qış aylarını burada keçirib, yazda yun qırxımından sonra dağlara qalxardılar.

Gölün kəndin ərazisində olmasına baxmayaraq kənd əhalisi içməli sudan qıtlıq çəkirdi. Çünki gölün suyu ancaq heyvanlar üçün içməyə yararlı idi. İçməli su üçün Quruzma kəndi istiqamətindən Kür çayından boru vasitəsilə nasoslarla çənlərə su vurulurdu. 1940-cı ildən sonra buna ara verildi. Hacıqabuldan həftədə bir dəfə olmaq şərtilə sestirnalarda su göndərilirdi. Bu da səhəng və vedrə ilə su daşıyan qadınların çox zaman saatlarla su daşımasına səbəb olurdu. Kəndin bir tərəfinə gətirilən suyu dəmiryolunu aşaraq o biri tərəfinə daşıyardılar.

Qarasu gölünün çox böyük tarixi əhəmiyyəti vardı. Kəndin ağbirçəyi, yaşlı Tərgül nənə deyirdi ki, 1898-1918-ci illər ərzində dəfələrlə ermənilər Azərbaycana hücum edən zaman istəmişdilər ki, Qarasu gölünü keçib Şamaxı istiqamətində hərəkət etsinlər. Lakin, onlar buna nail ola bilməmişdilər. Sıx qamışlıqda gizlənib kəndin müdafiəsinə qalxan kənd camaatı buna imkan verməmişdir. Ermənilər gölü addaya bilməyəcəklərini görüb Salyan istiqamətinə doğru Kür çayı ilə hərəkət etmişdilər.

Gölün ikinci tarixi əhəmiyyəti ondan ibarətdir ki, 1941-1945-ci illər müharibəsi ərzində kənd əhalisini, həta ətraf kəndlərin də əhalisini aclıqdan xilas etmişdir. Çünki göl balıq, quş, vəhşi qabanla o qədər zəngin idi ki, əhalinin ehtiyacını təmin edirdi.

1950-51-ci illərdə xalq şairi Səməd Vurğun və Abdulla Şaiq dəfələrlə Qarasu kəndinə ceyran, turac ovuna gəlmişdilər.

Bəzi hallarda göl ətrafında ovçular qabanın hücumuna məruz qalırdı. Qaban onu yaralayıb əzirdi. Göldə vəhşi qabanı ovlamaq çətin idi. Çünki qaban üzü küləyə yatdığı üçün ovçunun gəlməsini dərhal hiss edirdi. Ya qaçıb gizlənirdi, ya da hücuma keçirdi.

Əfsuslar olsun ki, sovetlər dövrünün 60-70-ci illərində bu gölün adi xəritədən silindi. Şirvan kanal çəkilən zaman gölün suyunu tamamilə çəkib gölü qurutdu.

Göl quruduldiqdan sonra onun üst qatında əmələ gəlmiş tonlarla sədəf üçün yararlı çaqqanaqlar yığılıb vaqonlara yüklənib Rusiya ərazisinə göndərilirdi.

Beləcə, Qarasu gölü həm kənd sakinlərinin, həm də gölü xatırlayanların xatirindən silindi.

***Əliş Səmədov***

**HACIQABUL**

**Baş redaktor:**
Xuraman Feyruzqızı

**Həmtəsisçi:**
Qəzetin jurnalist kollektivi

Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son Dakika" çap evində ofset üsulu ilə çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200